# Ərazi və əhali

Rayonunun ərazisi 1,18 min kvadrat kilometrə, əhalinin sıxlığı isə bir kvadrat kilometrə 94,0 nəfərə bərabərdir.

İlkin məlumata əsasən 2024-cü il yanvar ayının 1-i vəziyyətinə rayonunun əhalisi 110488 nəfər olmuş və əhalinin 49,7 faizini kişilər, 50,3 faizini qadınlar təşkil edir.

Əhalinin 20,2 min nəfəri və ya 18,2 faizi şəhər yerlərində, 90,3 min nəfəri və ya 81,8 faizi isə kənd yaşayış məntəqələrində yaşayır.

Əhalinin 24,0 faizini 0-14 yaşda, 69,4 faizini 15-64 yaşda, 6,6 faizini isə 65 və yuxarı yaşda olanlar təşkil edir. 2019-cu ildə keçirilmiş əhalinin siyahıyaalınmasının nəticəsinə əsasən əhalinin 88,9 faizini azərbaycanlılar, 11,1 faizini isə digər millətlər təşkil edir.

2022-2023-cü illərin yanvar-dekabr aylarında bəzi demoqrafik göstəricilər.

cədvəl 1

| Göstəricilər | Nəfər | | Əhalinin hər min nəfərinə | |
|---|---|---|---|---|
| | 2023-cü il (ilkin məlumat) | 2022-ci il | 2023-cü il (ilkin məlumat) | 2022-ci il |
| **Əhalinin sayı** | **110488** | **109709** | **x** | **x** |
| Ümumi artım | 779 | 1055 | 7,1 | 9,7 |
| Təbii artım | 700 | 1001 | 6,4 | 9,2 |
| Doğulanlar | 1243 | 1551 | 11,3 | 14,2 |
| Ölənlər | 543 | 550 | 4,9 | 5,0 |
| o cümlədən :<br>1 yaşa qədər ölənlər | 11 | 8 | 8,8 | 5,2 |
| Miqrasiya saldosu | 79 | 54 | 0,7 | 0,5 |
| Nikahlar | 523 | 695 | 4,8 | 6,4 |
| Boşanmalar | 188 | 123 | 1,7 | 1,1 |

2023-cü il ərzində rayonda 1243 nəfər körpə doğulmuş və 543 nəfər ölən qeydə alınmışdır. Vəfat edənlərin 11 nəfəri 1 yaşa qədər ölən uşaqlar olmuşdur.

2022-ci illə müqayisədə əhalinin hər min nəfərinə doğulanların sayı 14,2-dən 11,3-ə qədər, ölənlərin sayı isə 5,0-dən 4,9-a qədər azalmışdır.

2023-cü il ərzində rayonda 523 nikah və 188 boşanma qeydə alınmışdır ki, bu da əvvəlki illə müqayisədə əhalinin hər min nəfərinə hesabı ilə nikahların sayı 6,4-dən 4,8-ə qədər azalmış, boşanmaların sayı isə 1,1-dən 1,7-yə qədər artmışdır.

## Makroiqtisadi göstəricilər

2023-cü ildə əvvəki illə müqayisədə ümumi məhsul buraxılışının həcmi 10989,1 min manat və ya müqayisəli qiymətlərlə 4,0 faiz artaraq, 421199,9 min manat olmuşdur.

Ümumi məhsul buraxılışının həcmi müqayisəli qiymətlərlə tikinti sahəsi üzrə 54,5 faiz, informasiya və rabitə sahəsi üzrə 17,5 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsi üzrə 7,3 faiz, ticarət: nəqliyyat vasitələrininin təmiri sahəsi üzrə 0,8 faiz artmışdır. Əvvəlki illə müqayisədə pərakəndə ticarət dövriyyəsinin həcmi 29282,9 min manat və ya müqayisəli qiymətlərlə 10,0 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi isə 3400,0 min manat və ya müqayisəli qiymətlərlə 11,2 faiz artmışdır. 2023-cü ilin yanvar-noyabr ayları ərzində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 568,1 manat olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 64,8 manat və ya 12,9 faiz çoxdur.

**İqtisadiyyatın əsas sahələrində məhsul buraxılışının fiziki həcm indeksi, əvvəlki ilə nisbətən, faizlə**

Cədvəl 2

| Göstəricilərin adı | 2023-cü il faktiki qiymətlərlə (min manatla) | 2022-ci il faktiki qiymətlərlə (min manatla) | 2022-ci ilə nisbətən müqayisəli qiymətlərlə, faizlə |
|---|---|---|---|
| **Rayon üzrə ümumi məhsul buraxılışının həcmi (ilkin məlumat)** | **421199,9*** | **410210,8** | **104,0** |
| *o cümlədən:* *- Sənaye* | *67624,7* | *100092,1* | *96,9* |
| *- Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq* | *236043,5* | *205773,8* | *107,3* |
| *- Tikinti* | *10131,2* | *6558,2* | *154,5* |
| *- Nəqliyyat və anbar təsərrüfatı* | *3616,3* | *3513,2* | *98,6* |
| *- İnformasiya və rabitə* | *940,1* | *799,9* | *117,5* |
| *- Ticarət: nəqliyyat vasitələrinin təmiri* | *102844,1* | *93473,6* | *100,8* |

* İlkin məlumat

**Bəzi makroiqtisadi göstəricilər**

Cədvəl 3

| Göstəricilərin adı | 2023-cü il faktiki qiymətlərlə (min manatla) | 2022-ci il faktiki qiymətlərlə (min manatla) | 2022-ci ilə nisbətən, faizlə |
|---|---|---|---|
| Əsas kapitala yönəldilmiş investitsiya | 11723,0* | 7193,2 | 163,0 |
| Pərakəndə ticarət dövriyyəsi | 321387,9 | 292105,0 | 110,0 |
| Əhaliyə göstərilən ödənişli xidmətlər | 33710,0 | 30310,0 | 111,2 |
| Nəqliyyat sektorunda yük daşınması, fiziki şəxslər üzrə (min ton) | 546,0 | 494,0 | 110,5 |
| Nəqliyyat sektorunda sərnişin daşınması, fiziki şəxslər üzrə (min sərnişin) | 7169,0 | 5881,0 | 121,9 |
| Orta aylıq nominal əməkhaqqı (manat) 01.12.2023-cü il tarixinə | 568,1 | 503,3 | 112,9 |

* İlkin məlumat

## Kənd təsərrüfatı

Rayonun iqtisadiyyatında kənd təsərrüfatı mühüm yer tutur. 2023-cü il ərzində istehsal edilmiş kənd təsərrüfatı məhsullarının ümumi dəyəri ilkin hesablamalara əsasən 236043,5 min manat təşkil etmişdir ki, bu da əvvəlki ilə nisbətən 30269,7 min manat və ya müqayisəli qiymətlərlə 7,3 faiz çoxdur. İstehsal olunmuş kənd təsərrüfat məhsullarının 141794,0 min manat və ya 60,1 faizi bitkiçilik məhsullarının, 94249,5 min manatı və ya 39,9 faizi heyvandarlıq məhsullarının payına düşür.

**Kənd təsərrüfatının sahələri üzrə məhsul buraxılışı, min manatla**

cədvəl 5

| Göstəricilərin adı | 2023-cü il faktiki qiymətlərlə, min manatla | 2022-ci il faktiki qiymətlərlə, min manatla | Fərq faktiki qiymətlərlə, min manatla +;- | 2022-ci ilə nisbətən fiziki həcm indeksi, faizlə |
|---|---|---|---|---|
| Kənd təsərrüfatı sahəsi üzrə | 236043,5 | 205773,8 | 30269,7 | 107,3 |
| o cümlədən:<br>- *bitkiçilik sahəsi üzrə* | *141794,0* | 124036,6 | *17757,4* | x |
| - *heyvandarlıq sahəsi üzrə* | *94249,5* | 81737,2 | *12512,3* | x |

**<u>Bitkiçilik üzrə</u>** 2023-ci ilin məhsulu üçün 53589,3 hektar sahədə payızlıq və yazlıq bitkilər əkilmişdir ki, bunun da 46636,2 hektarı və ya 87,0 faizi əhali və fərdi sahibkarlar üzrə 6953,1 hektar və ya 13,0 faizi kənd təsərrüfatı müəssisələrinin payına düşür.

Rayon üzrə ümumi əkin sahəsinin 19801,0 hektarında və ya 36,95 faizi payızlıq taxıl, 16586,0 hektar və ya 30,95 faiz yem bitkiləri, 12624,1 hektar və ya 23,56 faizi pambıq, 2463,5 hektar və ya 4,60 faiz bostan, 922,5 hektar və ya 1,72 faizi dən üçün qarğıdalı, 812,2 hektar və ya 1,51 faizi tərəvəz, 364,0 hektar və ya 0,68 faiz kartof, 9 hektar və ya 0,02 faizi lobya, 7 hektar və ya 0,01 faizi günəbaxan əkilmişdir. 01 yanvar 2024-cü il tarixinə 19801,0 hektar sahədə taxıl məhsulu biçilmişdir, həmin sahədən 80909,6 ton məhsul toplanmışdır kı, bu da hər hektardan 40,9 sentner məhsul deməkdir.

Əvvəlki illə müqayisə etdikdə hər hektardan 0,2 sentner çox taxıl məhsulu toplanmışdır. 922,5 hektar sahədən 8849,7 ton və ya hər hektardan 67,5 sentner dən üçün qarğıdalı, 9 hektar sahədən 77,5 ton və ya hər hektardan 86,1 sentner dənli paxlalılar (lobya) məhsulu, 7 hektar sahədən 38,4 ton və ya hər hektardan 56,6 sentner dən üçün günəbaxan, 364,0 hektar sahədən 7302,7 ton və ya hər hektardan 200,6 sentner kartof, 812,2 hektar sahədən 23024,7 ton və ya hər hektardan 283,5 sentner tərəvəz, 2463,5 hektar sahədən 85479,3 ton və ya hər hektardan 347,0 sentner bostan, 3071,6 hektar sahədən 14136,8 ton və ya 56,7 sentner meyvə və giləmeyvə, 16586,0 hektar sahədən 154164,3 ton və ya hər hektardan 92,9 sentner yonca və 1616,7 ton üzüm məhsulu toplanmışdır. Ötən illə müqayisədə hər hektardan 7,7 sentner dən üçün qarğıdalı, 0,2 sentner lobya, 0,6 sentner dən üçün günəbaxan, 0,6 sentner kartof, 0,3 senter tərəvəz,13,0 sentner bostan məhsulu, 0,6 sentner meyvə və gilemeyvə məhsulu çox, 0,7 sentner yonca məhsulu az olmuşdur.

2023-cü ildə əkilmiş 12624,1 hektar sahədən 38338,1 ton xam pambıq tədarük edilmişdir ki, bu da ötən illə müqayisədə 1746,9 ton və ya hər hektardan 1,5 sentner az məhsul toplanmışdır. Respublika üzrə pambıq tədarükündə ən yaxşı göstəricidir.

cədvəl 6

**Kənd təsərrüfatı bitkilərinin əkin sahəsi (bütün təsərrüfat kateqoriyaları üzrə), ha**

| Bitkiçilik məhsullarının adı | 2023-cü il | 2022-ci il | 2022-ci ilə nisbətən fərqi +,- |
|---|---|---|---|
| **Dənlilər və dənli paxlalılar-cəmi** | **20732,5** | **18801,0** | **1931,5** |
| *o cümlədən:*<br>*- buğda* | *14873,0* | *13091,0* | *1782,0* |
| *- arpa* | *4928,0* | *5461,0* | *-533,0* |
| *- dən üçün qarğıdalı* | *922,5* | *241,0* | *681,5* |
| *- lobya* | *9,0* | *8,0* | *1,0* |
| *- sair dənli bitkilər (darı)* | - | - | - |
| **Texniki bitkilər-cəmi** | **12631,1** | **12576,0** | **55,1** |
| *o cümlədən:*<br>*- pambıq* | *12624,1* | *12570,0* | *54,1* |
| *- dən üçün günəbaxan* | *7,0* | *6,0* | *1,0* |
| **Kartof** | **364,0** | **362,0** | **2,0** |
| **Tərəvəz** | **812,2** | **809,0** | **3,2** |
| **Bostan bitkiləri** | **2463,5** | **2445,0** | **18,5** |
| **Meyvə və giləmeyvə** | **3071,6** | **2896,6** | **175,0** |
| **Üzüm** | **-** | **-** | **-** |
| **Cəmi yem bitkiləri** | **16586,0** | **18642,0** | **-2056,0** |
| *o cümlədən:*<br>*- yonca* | *16586,0* | *18576,7* | *-1990,7* |
| *- yem üçün qarğıdalı* | - | *66,0* | *-66,0* |

cədvəl 7

**Əsas bitkiçilik məhsullarının istehsalı (bütün təsərrüfat kateqoriyaları üzrə), ton**

| Bitkiçilik məhsullarının adı | 2023-cü il | 2022-ci il | 2022-ci ilə nisbətən fərqi +,- |
|---|---|---|---|
| **Dənlilər və dənli paxlalılar-cəmi** | **91765,7** | **77877,0** | **13888,7** |
| *o cümlədən:*<br>*- buğda* | *63062,3* | *55768,0* | *7294,3* |
| *- arpa* | *17847,3* | *19718,0* | *-1870,7* |
| *- dən üçün qarğıdalı* | *8849,7* | *2297,0* | *6552,7* |
| *- lobya* | *77,5* | *94,0* | *-16,5* |
| *- sair dənli bitkilər (darı)* | *1928,9* | - | *1928,9* |
| **Texniki bitkilər-cəmi** | **38376,5** | **40118,0** | **-1741,5** |
| *o cümlədən:*<br>*- pambıq* | *38338,1* | *40085,0* | *-1746,9* |
| *- dən üçün günəbaxan* | *38,4* | *33,0* | *5,4* |
| **Kartof** | **7302,7** | **7247,0** | **55,7** |
| **Tərəvəz** | **23024,7** | **22904,0** | **120,7** |
| **Bostan məhsulları** | **85479,3** | **81584,0** | **3895,3** |
| **Meyvə və giləmeyvə** | **14136,8** | **13740,9** | **395,9** |
| **Üzüm** | **1616,7** | **1615,9** | **0,8** |
| **Cəmi yem bitkiləri** | **154831,4** | **176847,6** | **-22016,2** |
| *o cümlədən:*<br>*- yonca* | *154164,3* | *173953,7* | *-19789,4* |
| *- yem üçün qarğıdalı* | *667,1* | *2893,9* | *-2226,8* |

cədvəl 8

**Məhsuldarlıq (bütün təsərrüfat kateqoriyaları üzrə), sentner/ha**

| **Bitkiçilik məhsullarının adı** | **2023-cü il** | **2022-ci il** | **2022-ci ilə nisbətən fərqi +,-** |
|---|---|---|---|
| **Dənlilər və dənli paxlalılar-cəmi** | **44,3** | **41,0** | **3,3** |
| *o cümlədən:*<br>*- buğda* | *42,4* | *42,6* | *-0,2* |
| *- arpa* | *36,2* | *36,1* | *0,1* |
| *- dən üçün qarğıdalı* | *67,5* | *59,8* | *7,7* |
| *- lobya* | *86,1* | *85,9* | *0,2* |
| *- sair dənli bitkilər (darı)* | - | - | - |
| **Texniki bitkilər-cəmi** | **-** | **-** | **-** |
| *o cümlədən:*<br>*- pambıq* | *30,4* | *31,9* | *-1,5* |
| *- dən üçün günəbaxan* | *56,6* | *56,0* | *0,6* |
| **Kartof** | **200,6** | **200,0** | **0,6** |
| **Tərəvəz** | **283,5** | **283,2** | **0,3** |
| **Bostan bitkiləri** | **347,0** | **334,0** | **13,0** |
| **Meyvə və giləmeyvə** | **56,7** | **56,1** | **0,6** |
| **Üzüm** | - | - | - |
| **Cəmi yem bitkiləri** | **93,3** | **93,3** | **-** |
| *o cümlədən:*<br>*- yonca* | *92,9* | *93,6* | *-0,7* |
| *- yem üçün qarğıdalı* | - | *43,8* | *-43,8* |

**Heyvandarlıq üzrə** 2024-cü ilin 01 yanvar vəziyyətinə bütün təsərrüfat kateqoriyaları üzrə iri buynuzlu mal-qaranın baş sayı 68122 baş, o cümlədən, inək və çamışların baş sayı 32657 baş, qoyun və keçilərin baş sayı 116757 baş olmuşdur. 2022-ci ilə nisbətən iri buynuzlu mal-qaranın baş sayı 221 baş, qoyun və keçilərin baş sayı isə 255 baş artmışdır.

İri buynuzlu mal qaranın tərkibində inək və camışların sayı əvvəlki ilə nisbətən 110 baş artmışdır.

Heyvandarlıq sahəsində fəaliyyət göstərən kəndli fermer təsərrüfatları üzrə 2024-cü ilin 01 yanvar vəziyyətinə iri buynuzlu mal-qaranın sayı 654 baş, o cümlədən, inək və çamışların sayı 298 baş, qoyun və keçilərin baş sayı isə 9327 baş olmuşdur. Əvvəlki illə müqayisədə iri buynuzlu mal qaranın sayı 41 baş, o cümlədən, inək və camışların sayı 42 baş, qoyun və keçilərin sayı isə 389 baş azalmışdır.

Heyvandarlıq sahəsində 21 kəndli fermer təsərrüfatı fəaliyyət göstərir.

cədvəl 9

**Mal-qaranın sayı (bütün təsərrüfat kateqoriyaları üzrə), müqayisəli məlumat (baş)**

| Göstəricilər | 2023-cü il | 2022-ci il | 2022-ci ilə nisbətən fərqi +,- |
|---|---|---|---|
| İri buynuzlu mal-qara | 68122 | 67901 | +221 |
| *o cümlədən:*<br>*- inək və camışlar* | *32657* | *32547* | *+110* |
| Qoyun və keçilər | 116757 | 116502 | +255 |

qrafik 4




2023-cü il ərzində ət istehsalı (diri çəkidə) 7087,0 ton, süd istehsalı 41898,8 ton, yumurta istehsalı 14555,0 min ədəd, yun istehsalı 231,6 ton, barama istehsalı 1,8 ton olmuşdur. Əvvəki illə müqayisədə 7,4 ton ət, 7,1 ton süd, 120 min ədəd yumurta, 7,5 ton yun çox istehsal olunmuşdur. Barama istehsalı əvvəlki illə müqayisədə 0,3 ton az olmuşdur.

cədvəl 10

| **Heyvandarlıq məhsullarının istehsalı, müqayisəli məlumat** | | | | | |
|---|---|---|---|---|---|
| Məhsulun adı | Ölçü vahidi | 2023-cü il | 2022-ci il | 2022-ci ilə nisbətən, | |
| | | | | +;- | faizlə |
| Ət (diri çəkidə) | ton | 7087,0 | 7079,6 | +7,4 | 100,10 |
| Süd | ton | 41898,8 | 41891,7 | +7,1 | 100,02 |
| Yumurta | min ədəd | 14555,0 | 14435,0 | +120 | 100,83 |
| Yun | ton | 231,6 | 224,1 | +7,5 | 103,35 |
| Barama | ton | 1,8 | 2,1 | -0,3 | 85,71 |

## Sənaye

2023-cü il ərzində sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən faktiki qiymətlərlə 67624,7 min manatlıq və ya 2022-ci ilə nisbətən müqayisəli qiymətlərlə 3,1 faiz az sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. İstehsalın 93,38 faizi sənaye məhsulları, 6,62 faizi isə sənaye xarakterli xidmətlərdən ibarət olmuşdur.

İstehsal olunan sənaye məhsulu və xidmətlərin 93,38 faizi emal və mədənçıxarma sənayesi bölməsinin, 4,38 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsinin, 2,24 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsinin payına düşür. Ümumi istehsalda qeyri-dövlət sektoru 72,4 faiz, dövlət sektoru isə 27,6 faiz təşkil etmişdir.

01 yanvar 2024-cü il tarixinə sənaye müəssisələrinin anbarlarında 36832,4 min manatlıq hazır məhsul qalığı olmuşdur.

Mal və xidmətlərin 57734,2 min manat və ya 85,4 faizi hüquqi şəxslər, 9890,5 min manat və ya 14,6 faizi isə fərdi sahibkarlar və ev təsərrüfatları tərəfindən istehsal olunmuşdur.

Sənaye istehsalçıları tərəfindən yanvar-dekabr ayları ərzində 19103,0 ton pambıq mahlıcı, 24006,7 ton pambıq çiyidi, 900,0 ton pambıq lint-tiftiyi, 59,9 ton pambıq ulyuku, 969,4 ton biyan turşusu, 310,1 ton biyan kipi istehsal olunmuşdur.

2023-cü il ərzində müəssisələr tərəfindən istehsal olunmuş məhsulların miqdarı və əvvəlki illə müqayisəsi aşağıdakı cədvəldə göstərilmişdir.

cədvəl 4

**Sənaye müəssisələri tərəfindən natura formasında istehsal olunmuş məhsullar müqayisəli (tonla)**

| Məhsulun adı | 2023-cü il | 2022-ci il | 2022-ci ilə nisbətən, faizlə |
|---|---|---|---|
| Pambıq mahlıcı | 19103,0 | 23120,3 | 82,6 |
| Pambıq çiyidi | 24006,7 | 29392,1 | 81,7 |
| Pambıq tiftiyi (linti) | 900,0 | 1153,0 | 78,1 |
| Pambıq ulyuku | 59,9 | 80,9 | 74,0 |
| Biyan turşusu | 969,4 | 884,9 | 109,5 |
| Biyan kipi | 310,1 | 229,0 | 135,4 |

qrafik 3



## Əsaslı tikinti

2023-cü il ərzində tikinti təşkilatları və fərdi sahibkarlar tərəfindən 6964,4 min manat həcmində tikinti işləri yerinə yetirilmişdir. Görülmüş tikinti işlərinin 4627,6 min manatını və ya 66,4 faizini tikinti, yenidənqurma, genişləndirmə, texniki avadanlıqlar və cihazlarla yenidən təchiz edilməsi işləri, 647,2 min manatını və ya 9,3 faizini əsaslı təmir, 1661,2 min manatını və ya 23,9 faizini cari təmir, 28,4 min manatını və ya 0,4 faizini isə sair işlər təşkil etmişdir.

İl ərzində istifadəyə verilmiş əsas fondların dəyəri 2463,6 min manat təşkil etmiş və əvvəlki illə müqayisədə 94,6 faiz az olmuşdur.

2023-cü il ərzində bütün maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş investisiyanın həcmi 11723,0 min manat olaraq əvvəlki illə müqayisədə 63,0 faiz çox olmuşdur. İstifadə olunan investisiyanın 7776,1 min manatı və ya 66,3 faizi dövlət vəsaiti, 3946,9 min manatı və ya 33,7 faizi isə qeyri dövlət vəsaitləri hesabına olmuşdur.

Cari il ərzində əhalinin şəxsi vəsaiti hesabına ümumi sahəsi 4627,0 kv.m olan fərdi yaşayış evləri istifadəyə verilmişdir ki, bu da əvvəlki ilə nisbətən 3013,0 kv.m və ya 39,4 faiz az olmuşdur.

Yerinə yetrilmiş tikinti işlərinin əvvəlki illə müqayisəsi (faktiki qiymətlərlə) aşağıdakı cədvəldə göstərilmişdir.

cədvəl 11

**Yerinə yetrilmiş tikinti işlərinin dəyəri, min manatla**

| | 2023-cü il | 2022-ci il | 2022-ci ilə nisbətən, faizlə |
|---|---|---|---|
| Cəmi tikinti işləri | 6964,4 | 3425,0 | 2,0 dəfə |
| *o cümlədən:* | | | |
| *- tikinti, yenidənqurma, genişləndirmə, texniki avadanlıqlar və cihazlarla yenidən təchiz edilmə* | *4627,6* | *350,1* | *13,2 dəfə* |
| *- əsaslı təmir* | *647,2* | *1996,0* | *32,4* |
| *- cari təmir* | *1661,2* | *1078,9* | *154,0* |
| *- sair işlər* | *28,4* | - | - |

qrafik 5



## Nəqliyyat

2023-cü il ərzində nəqliyyat müəssisələri və nəqliyyat sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən məhsul buraxılışının həcmi 3616,3 min manat olmuşdur ki, ötən ilə nisbətən müqayisəli qiymətlərlə 1,4 faiz azalmışdır. Məhsul buraxlışının həcmindən 210,3 min manatı hüquqi şəxslərin, 3406,0 min manatı isə fiziki şəxslərin payına düşür. 2023-cü ilin yanvar-dekabr ayları ərzində fiziki şəxslər tərəfindən 7169,0 min sərnişin, 546,0 min ton yük daşınmışdır ki, bu da ötən illə müqayisədə 1288,0 min və ya 21,9 faiz çox sərnişin, 52,0 min ton və ya 10,5 faiz çox yük daşınmışdır.

Nəqliyyat sektorunda məhsul buraxılışı və fiziki şəxslər tərəfindən sərnişin və yük daşınmanın həcmi aşağıdakı cədvəldə göstərilmişdir.

cədvəl 12

**Nəqliyyat sektorunun əsas göstəriciləri**

| Sahələrin adı | 2023-cü il | 2022-ci il | 2022-ci ilə nisbətən, +,- |
|---|---|---|---|
| Nəqliyyat sektorunda məhsul buraxılışı (min manat) | 3616,3 | 3513,2 | 103,1 |
| *o cümlədən:*<br>*- hüquqi şəxslər üzrə (min manat)* | *210,3* | *346,7* | *-136,4* |
| *- fiziki şəxslər üzrə (min manat)* | *3406,0* | *3166,5* | *239,5* |
| Sərnişin daşınma fiziki şəxslər üzrə (min sərnişin) | 7169,0 | 5881,0 | 1288,0 |
| Yük daşınma həcmi fiziki şəxslər üzrə (min ton) | 546,0 | 494,0 | 52,0 |

qrafik 6



## Rabitə

2023-cü il ərzində rabitə müəssisələri tərəfindən müəssisə təşkilatlara və əhaliyə göstərilən xidmətlərin (ƏDV-siz) faktiki qiymətlərlə dəyəri 940,1 min manat olmuş və ötən illə müqayisədə 140,2 min manat və ya müqayisəli qiymətlərlə 17,5 faiz çox olmuşdur. Rabitə xidmətlərinin həcmindən əhaliyə göstərilən rabitə xidmətlərinin (ƏDV-siz) faktiki qiymətlərlə dəyəri 786,7 min manat olmuş və əvvəlki illə müqayisədə 105,6 min manat artmışdır.

cədvəl 13

**Rabitə müəssisələri tərəfindən göstərilmiş xidmətlərin faktiki qiymətlərlə dəyəri, min manatla**

| Göstəricilər | 2023-cü il | 2022-ci il | 2022-ci ilə nisbətən, +,- |
|---|---|---|---|
| Rabitə xidmətlərindən əldə olunan gəlir (ƏDV-siz) | 940,1 | 799,9 | 140,2 |
| *ondan:*<br>*- əhaliyə göstərilən rabitə xidmətlərinin dəyəri (ƏDV-siz)* | 786,7 | 681,1 | 105,6 |

qrafik 7



## Pərakəndə ticarət dövriyyəsinin həcmi

2023-cü il ərzində pərakəndə ticarət dövriyyəsinin həcmi 321387,9 min manat olmuşdur ki, bunun da 29463,0 min manatı və ya 9,2 faizi hüquqi şəxslərin, 291924,9 min manatı və ya 90,8 faizi fərdi sahibkarların payına düşür.

Pərakəndə ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 29282,9 min manat və ya müqayisəli qiymətlərlə 0,8 faiz artmışdır.

Pərakəndə ticarət dövriyyəsinin 157277,8 min manatı və yaxud 48,9 faizi ərzaq malları, içkilər və tütün məmulatlarının, 164110,1 min manatı və yaxud 51,1 faizi qeyri ərzaq mallarının payına düşür. Pərakəndə ticarət dövriyyəsinin 321382,0 min manatı və ya 99,9 faiz özəl sektorun payına düşür. Hesabat dövrünün sonuna pərakəndə ticarət şəbəkələrində mal qalığı 20197,6 min manat olmuşdur.

cədvəl 14

**Pərakəndə ticarət dövriyyəsinin həcmi, min manatla**

| Göstəricilər | pərakəndə ticarət dövriyyəsinin həcmi | o, cümlədən | | 01.01.2024-cü il tarixinə mal qalığı |
|---|---|---|---|---|
| | | ərzaq malları, içkilər və tütün məmulatları | qeyri-ərzaq malları | |
| Rayon üzrə cəmi | 321387,9 | 157277,8 | 164110,1 | 20197,6 |
| o cümlədən;<br>- Hüquqi şəxslər üzrə | 29463,0 | 7052,1 | 22410,9 | 1741,0 |
| - Fərdi sahibkarlar, bazar və yarmarkalar üzrə, cəmi | 291924,9 | 150225,7 | 141699,2 | 18456,6 |
| o cümlədən :<br>- Bazar və yarmarkalar | 106703,3 | 56739,1 | 49964,2 | - |
| - Fərdi sahibkarlar üzrə | 185221,6 | 93486,6 | 91735,0 | 18456,6 |

qrafik 8



## Əhaliyyə göstərilən ödənişli xidmətlərin həcmi

2023-cü il ərzində əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi 33710,0 min manat olmuşdur ki, bunun da 6568,5 min manatı hüquqi şəxslərin, 27141,5 min manatı isə fərdi sahibkarların payına düşür.

Əhaliyə göstərilən ödənişli xidmətin həcmi əvvəlki illə müqayisədə 3400,0 min manat və ya müqayisəli qiymətlərlə 2,8 faiz artmışdır. Göstərilən ödənişli xidmətlərin həcmindən 4377,0 min manatı məişət xidməti olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 467,0 min manat və ya müqayisəli qiymətlərlə 2,0 faiz çoxdur. 2023-cü il ərzində iaşə dövriyyəsinin həcmi 6240,0 min manat olmuşdur. Bu da əvvəlki illə müqayisədə 893,0 min manat və ya müqayisəli qiymətlərlə 4,5 faiz çox olmuşdur.

cədvəl 15

**Əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi, min manatla**

| Göstəricilər | 2023-cü il | o, cümlədən; məişət xidməti |
|---|---|---|
| Ödənişli xidmətlərin həcmi | 33710,0 | 4377,0 |
| *o cümlədən :* <br> *- hüquqi şəxslər üzrə* | *6568,5* | *17,8* |
| *- fərdi sahibkarlar üzrə* | *27141,5* | *4359,2* |

qrafik 9

